# 31 mart–Azərbaycanlıların soyqırımı günüdür

## Həqiqətlər və erməni cəfəngiyatı

(Əvvəli 6-cı səhifədə).

Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnakları müharibədən sonrakı mərhələlərdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail olmuşlar.1948--1953-cü illərdə 144654 nəfər,1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarmış və 229 nəfər azərbaycanlı isə vəhşicəsinə qətlə yetirilmişdir.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasəti nəticəsində Dağlıq Qarabağdakı 80 yaşayış məntəqəsindən 60 min azərbaycanlı doğma ocaqlarından didərgin salınmış, işğal olunmuş 7 rayondan 700 min azərbaycanlı ev-eşiyini tərk edib respublikanın 58 rayon və yaşayış məntəqələrində məskunlaşmışdır. Hərbi əməliyyatlar nəticəsində respublikamızın 10 şəhəri, 876 kənd, 700 istimai bina, 693 məktəb, 862 mədəniyyət sarayı və klub, 652 tibb məntəqəsi, o cümlədən 191 xəstəxana, 160 körpü, 800 kilometr avtomobil yolu 15 kilometr elektrik xətti dağıdılmış, 30 mindən artıq soydaşımız qətlə yetirilmiş, 52 milyard ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur.

Erməni cəladları tərəfindən törədilən Xocalı soyqırımı dünya tarixində analoqu olmayan vəhşilikdir. 1992-ci il fevralın 25 və 26-da sovet ordusunun Xankəndində qalan 366-cı alayının hərbi hissələri ilə birlikdə Azərbaycanın qədim mədəniyyət və sivil şəhərinə soxulmuş və şəhəri ağır hərbi texnika vasitəsilə yerlə-yeksan etmişlər. Erməni vəhşiləri 613 nəfər dinc, əliyalın və köməksiz soydaşlarımızı vəhşicəsinə öldürmüş, 8 ailəni tamamilə məhv etmiş, 230 ailə öz başçısını itirmişdir. O dövrdə Azərbaycana rəhbərlik edən səriştəsiz insanlar və müxalifət liderləri xalqımıza qarşı törədilən soyqırımlara biganə qalmış, heç bir tədbir görməmiş, hətta hadisələrə siyasi-hüquqi qiymət verməmişlər. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra 1998-ci il 26 mart tarixli fərmanı ilə böyük öndər iki əsr ərzində xalqımıza qarşı ermənilərin törətdikləri soyqırımların mahiyyətini açmış və siyasi-hüquqi qiymətini vermişdir.

**A. CƏLİLOV.**

## Torpaqların deqradasiyasının qarşısının alınmasına dair təlim-seminar keçirilmişdir

Bu günlərdə «Qafqaz» Sport hotelində ATƏT-in İqtisadi Tədqiqatlar Mərkəzi «Torpaqların deqradasiyası, eroziyası və şoranlaşmasına səbəb olan amillər və onların qarşısının alınması yolları» mövzusunda təlim-seminar keçirmişdir. Dəyirmi masada İqtisadi Tədqiqatlar Mərkəzinin təlimçisi Vahid Məhərrəmov, həmin mərkəzin eksperti Rəcəb İmanov və rayonun torpaq, yer quruluşu, kadastr şöbələrinin, aqrokimya laboratoriyasının, bitki mühafizə bölməsinin və suvarma sistemləri idarəsinin nümayəndələri iştirak etmişlər.

Tədbiri açan rayon icra hakimiyyətinin aqrar şöbəsinin baş aqronomu Elmdar Şərifov yuxarıda qeyd edilən mövzu ilə əlaqədar iştirakçılara qısa məlumat verdi.

Sonra Vahid Məhərrəmov dəyirmi masa tədbirində «Torpaqların eroziyasını və deqradasiyasını yaradan» səbəbləri və «Torpaqların münbitliyinin qorunması yolları, eroziya və deqradasiya ilə mübarizə üsulları haqqında» çıxış etdi. O, qeyd etdi ki, torpaqların eroziyasını və deqradasiyasını (pisləşməsi) yaradan amillərdən biri istehsal zamanı əkin, suvarma işlərinin aqrotexniki qaydalara zidd aparılması, üzvü və mineral gübrələrdən normaya uyğun istifadə olunmaması nəticəsində əmələ gəlir. Torpaqları yaxşılaşdırmaq və onları külək, su eroziyasından, torpaqların münbitliyini pisləşdirən amillərdən və digər proseslərdən mühafizə etmək üçün məcburi tədbirlərin görülməməsinə görə İnzibati Xətalar Məcəlləsinin 11 iyul 2000-ci il tarixli 90-İQ nömrəli Qanunu ilə fiziki şəxslər iyirmi manatdan otuz beş manatadək miqdarda, vəzifəli şəxslər qırx manatdan altmış beş manatadək miqdarda, hüquqi şəxslər yüz əlli manatdan yüz doxsan manatadək miqdarda cərimə edilir. Eyni zamanda torpaqların (meşə fondu torpaqlarının) zibillənməsi və korlanması, torpaqlardan təsərrüfatsızcasına istifadə edilməsi, meşə fondu torpaqlarında biçənəklərin və ya otlaq sahələrinin zədələnməsinə və ya korlanmasına, su obyektlərinin mühafizəsi qaydalarının pozulmasına görə də müvafiq qanunvericilikdə müxtəlif miqdarda cərimələr nəzərdə tutulub. Odur ki, dövlət qanunçuluğuna əməl edilməli, torpaq, su, mühafizəsinə əməl etməli, ətraf mühitin qorunmasına ciddi riayət olunmalıdır.

«Torpaqların deqradasiyası, eroziyası və şoranlaşmasına səbəb olan amillər və onların qarşısının alınması yolları» ilə əlaqədar, hazırlanmış layihə barədə ekspert Rəcəb İmanov məlumat verdi və bu layihənin məqsəd və əhəmiyyətindən söhbət açdı.

Dəyirmi masa sual-cavabla və rəylərin dinlənilməsi ilə yekunlaşdı.

**«QƏBƏLƏ».**

## Şəhidin anım günü qeyd edildi

Müharibə vəziyyətində yaşayan ölkəmizdə gənc nəslin hərbi vətənpərvərlik ruhunda böyüməsi hər bir Azərbaycan vətəndaşının diqqət mərkəzindədir. İlham Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbinin pedaqoji kollektivi də bu istiqamətdə az fəaliyyət göstərmir. Məktəbimizin adını daşıdığı, kəndimizin ilk şəhidi İlham İlyas oğlu Abdulkərimovun anım günü idi. Kəndimiz İlham da daxil olmaqla beş şəhid verib. Həmin gün məktəbimizdə İlhamın anım günü və şəhid ailələri ilə şagirdlərin görüşü keçirildi. Görüşdə məktəbin pedaqoji kollektivi, şəhid ailələri, şagirdlər, Qəbələ Rayon Təhsil Şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, rayon təhsil şöbəsinin əməkdaşı Təranə Səlimova, Tüntül kənd tam orta məktəbinin uşaq birliyinin sədri Söylü Abdullayeva iştirak edirdilər.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Yaqub Tahirov açdı. Tərbiyə işləri üzrə direktor müavini Adil Əzimov İlham Abdulkərimovun az, lakin mənalı ömür yolu barədə məlumat verdi. Şagirdlərin



ifasında vətənpərvərlik mövzusunda hazırlanmış ədəbi-bədii kompozisiya tədbir iştirakçılarına təqdim olundu.

Sonda Arifə Bayramova çıxış edərək tədbirin təşkilindən və əhəmiyyətindən danışdı, belə tədbirlərin keçirilməsinin təlim keyfiyyətinin yüksəldilməsinə təsirini qeyd etdi. Arifə müəllimə tədbirin hazırlanmasında və yüksək səviyyədə keçirilməsində məktəb uşaq birliyinin sədri Sara müəllimənin xüsusi xidməti olduğunu vurğuladı.

Tədbirin sonunda şəhid əmilərini həyatda görməyən X a sinif şagirdi Natiq Abuşovun və XI b sinif şagirdi Xədicə Abuşovanın çıxışları iştirakçıları kədərləndirsə də, şəhidlik zirvəsinin ucalığı qəhrəmanlıq tarixi kimi bir daha nəzər-diqqətə çatdırıldı.

**Pərvanə ABDULHÜSEYNOVA,**
**məktəbin müəllimi.**

## Futbol yarışları davam edir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Qəbələ Rayon Uşaq-Gənclər İdman Məktəbinin təşkil etdiyi futbol yarışları davam etdirilir. Belə yarışlardan biri də Zalam kənd tam orta məktəbinin stadionunda keçirilmişdir. Burada Zalam kənd məktəbliləri Kiçik Əmili kəndinin məktəbli futbolçularını qəbul edirdilər.

Oyun birinci hissədə Zalam kənd məktəblilərinin tam üstünlüyü şəraitində keçdi. Belə ki, Zalam komandasının futbolçularından Cavad Məlikov və Cəmil Hacıyev gözəl ötürmələrin nəticəsində hər biri bir cavabsız top vuraraq qonaq komandanı məyus etdilər. Sonrakı hissədə oyun bərabər şəraitdə keçdi. Hesab 3:2 olmaqla Zalam kənd məktəbliləri qalib oldular.

Yarışların baş hakimi Məmmədsoltan Cəlalovun hakim kimi fəaliyyəti də çoxsaylı tamaşaçı kütləsi tərəfindən yüksək qiymətləndirildi.

**Sərdar HƏMİDOV,**
**Qəbələ Uşaq-Gənclər İdman məktəbinin məşqçi müəllimi.**